# Xocalı soyqırımı bəşəriyyətə qarşı tarixi cinayətdir

***Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilən ən dəhşətli soyqırımı cinayəti idi. Holokost, Xatın, Lidisa, Oradur, Sonqmi faciələri kimi insanlıq tarixinə qanla yazılan XX əsrin bu ağır müsibəti erməni faşizminin əsl simasını göstərdi.***

Düşmənin belə bir vəhşiliyə əl atması Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyətli Xocalı şəhərini yerlə yeksan edib adını xəritədən silmək, eyni zamanda, Qarabağı və ətraf rayonları ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini sarsıtmaq kimi məkrli istəyindən irəli gəlirdi. Yeri gəlmişkən, Xocalı tarixində bu vaxtadək bir neçə dəfə erməni faşizminin dəhşətləri ilə üzləşmişdi. Belə ki, bu əzəli yurd yerimiz XX əsrin əvvəllərində – 1905, 1906, 1917 və 1918-ci illərdə də xalqımıza qənim kəsilən barbarlar tərəfindən talan edilərək yandırılmış, sakinlərinə müsibətlər yaşadılmışdı. Lakin əhali bu cinayətlə barışmamış, yenidən doğma od-ocaqlarını bərpa edib yaşamağa başlamışdı.

Xankəndidən 10 kilometr cənub-şərqdə, Ağdam–Şuşa və Əsgəran–Xankəndi yollarının arasında strateji məntəqədə yerləşən Xocalı 1992-ci il fevralın ikinci yarısından başlayaraq, Ermənistan hərbi birləşmələri tərəfindən tam mühasirədə idi. Şəhər hər gün toplardan, ağır texnikadan atəşə tutulur, erməni silahlı dəstələrinin həmlələrinə məruz qalırdı.

Artıq 1992-ci il fevralın 18-də Xocalı istiqamətində olan yaşayış məntəqələri azərbaycanlılardan tam təmizlənmiş, yüksək mövqelər ermənilər tərəfindən tutulmuşdu. Şəhərdə vəziyyət getdikcə ağırlaşırdı. Bütün bunlara baxmayaraq, ölkə rəhbərliyi Xocalının xilası üçün heç bir addım atmırdı. Yaranmış vəziyyətdən faydalanmağa çalışan düşmən isə Xocalını daha tez ələ keçirməyə səy göstərirdi. Dinc sakinlərin dəstə halında və ya təklikdə mühasirədən çıxmaq üçün etdiyi bütün cəhdlərin qarşısı alınırdı. Xocalı belə bir acınacaqlı şəraitdə fevralın 25-dən 26-na keçən gecə daha bir qanlı faciə ilə yenidən sınağa çəkildi. Həmin vaxt keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyəti ilə birlikdə ən müasir hərbi texnika ilə təchiz edilən düşmən hərbi birləşməsi yüngül atıcı silahlarla döyüşən özünümüdafiə qüvvələrimiz istisna olmaqla, demək olar ki, müdafiəsiz qalan Xocalı ətrafında döyüş mövqeyi tutmağa başladı, şəhərə iki saata qədər fasiləsiz "Qrad" və "Alazan" tipli raketlər yağdırdı. Xocalı alova qərq oldu, əhali isə evlərini tərk edib gecənin qaranlığında meşə ilə Ağdama tərəf üz tutdu. Azğın düşmən əsasən, Qarqar çayı istiqamətində, Naxçivanik kəndi yaxınlığında da dinc əhaliyə qarşı əsl soyqırımı törətdi.



İnsanlığa sığmayan belə bir dəhşətli akt nəticəsində bəzi ailələr bütünlüklə məhv edildi, sakinlər misli görünməyən qəddarlıqla öldürüldü, diri-diri yandırıldı, başlarının dərisi soyuldu, gözləri çıxarıldı, əsir götürülənlərə isə amansız işgəncə verildi. Bu vəhşilik, barbarlıq, insanlığa sığmayan cinayət haqqında sonradan Qarabağ müharibəsinin ideoloqlarından biri, hadisələrin iştirakçısı yazıçı Zori Balayanın "Ruhumuzun canlanması" adlı kitabında da bəhs edildi: "Xocalını ələ keçirdiyimiz zaman bir evə girdik. Xaçatur adında bir əsgərimiz 13 yaşlı bir türk (Azərbaycan) uşağını pəncərəyə mismarladı. Türk uşağı dəhşətlə bağırırdı. Xaçatura dedim ki, onun səsini kəs. Xaçatur isə anasının döşünü kəsib balasının ağzına tıxadı. Mən ixtisasca həkim olduğum üçün üstümdə olan tibb bıçağı ilə uşağın başının, sinəsinin, qarnının dərisini soydum. Saata baxdım. 13 yaşlı uşaq 7 dəqiqədən sonra öldü. Ruhum sevinclə qürrələndi. Xaçaturla mən uşağın meyitini hissə-hissə doğradıq, tikələri itlərə atdıq və eyni şeyi daha üç türk uşağına qarşı etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bildim ki, hər bir erməni bizim etdiklərimizlə fəxr edəcək".

Samvel adlı erməni isə Ermənistanın keçmiş prezidenti Serj Sarqisyanın da Xocalı soyqırımında şəxsən amansız qətllər törətdiyini deyir: "Ermənilər hadisələrin üçüncü günü meşədə Xocalıdan qaçsalar da, getməyə yer tapmayan azərbaycanlılara rast gəldilər. Qoca, qadın, uşaq olan bu dəstədə artıq son nəfəsini yaşayanlar, donub qalanlar və yaralılar var idi. Onlardan zinət əşyaları, pul istənilirdi. Keçmiş prezident Serj Sarqsyan bu məsələdə daha çox canfəşanlıq göstərir, əsirləri güllələməkdən həzz aldığını deyirdi".

Serj Sarkisyan müsahibələrinin birində "Yüzlərlə insanın ölümünə görə təəssüflənirsinizmi?" sualına cavab olaraq deyib: "Heç bir peşmanlığım yoxdur. Bu cür sarsıntılar minlərlə insanın həyatı bahasına başa gəlsə də, zəruridir".

Erməni faşizminin xalqımıza qarşı törətdiyi bu növbəti soyqırımı nəticəsində 613 nəfər, o cümlədən, 106 qadın, 63 uşaq, 70 qoca amansızcasına qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin əsir götürüldü, 150 nəfər isə itkin düşdü.

Qətliam zamanı Azərbaycan tarixinin öyrənilməsində mühüm önəm daşıyan qədim mədəniyyətə, strateji mövqeyə malik Xocalı, sözün əsl mənasında, xarabalığa çevrildi. Erməni işğalçılarının insanlığa sığmayan dəhşətli cinayət əməlləri nəticəsində şəhərdə 105 sosial-məişət obyekti, 3200 fərdi yaşayış binası, 14 məktəb, 21 klub, 29 kitabxana, üç mədəniyyət evi və bir tarix-diyarşünaslıq muzeyi dağıdıldı. Bununla yanaşı, Xocalıda XIV-XV əsrə aid türbələr, günbəzlər, məzarlar yerlə-yeksan olundu, ümumiyyətlə, bu torpağın ən qədim sakinləri olan azərbaycanlılara aid bütün izlər silindi.

Xocalı faciəsi həmin vaxt belə demək mümkünsə, taleyin ümidinə buraxılmışdı. Şəhər düşmən tərəfindən mühasirədə saxlanılan günlərdə Azərbaycanın o dövrdəki rəhbərliyi Xocalı sakinlərinin çağırışlarını qulaqardına vurur, ziyalıların bəyanatlarına soyuqqanlılıqla yanaşır, qabaqlayıcı təhlükəsizlik tədbirlərindən yayınırdı.



Ümummilli lider Heydər Əliyev bununla bağlı deyib: "O zamankı iqtidarın Azərbaycanın milli müstəqilliyinə və xalqımıza qarşı xəyanətkar mövqeyi, öz konstitusion vəzifə borcuna qarşı laqeydliyi, ardı-arası kəsilməyən siyasi hakimiyyət oyunları, respublikada baş alıb gedən anarxiya və başıpozuqluq, ayrı-ayrı siyasətbazların məkrli şəxsi ambisiyaları bu tarixi faciənin törədilməsinə birbaşa şərait yaratmışdır. Uzun müddət dörd tərəfdən düşmən əhatəsində taleyin ümidinə buraxılmış vətəndaşlarımızın imdad dolu harayı qulaqardına vurulmuş, Xocalının xilas olunması üçün real imkanların mövcudluğuna baxmayaraq, günahsız əhali məqsədyönlü şəkildə bu milli qırğına sürüklənmişdir. Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə, təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən məhkum olunmalıdır".

Dahi şəxsiyyət Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmağı, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmağı qarşıya mühüm vəzifə kimi qoymuşdu. Bu məqsədin reallaşdırılmasını Xocalı şəhidlərinin ruhu qarşısında hər birimizin vətəndaşlıq və insanlıq borcumuz hesab edirdi. Ulu öndər faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət almasının, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılmasının zəruriliyini vurğulayırdı.

Xocalı şəhərində törədilmiş cinayətlərin xarakteri və miqyası bu soyqırımı aktının BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilən "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada ifadə olunan definisiyaya tam uyğun gəldiyini təsdiqləyir. Qabaqcadan planlaşdırılan kütləvi və amansız qırğına diqqət yetirdikdə, həmin ərazidə yaşayan insanların məhz azərbaycanlı olduqlarına görə tamamilə məhv etmək niyyəti ilə törədildiyi açıq-aşkar nəzərə çarpır.

Bu bəşəri cinayətin təşkilatçıları Ermənistanın siyasi rəhbərliyi, xüsusilə də Robert Köçaryan, Serj Sarqsyan və Seyran Ohanyan kimi qatilləri, birbaşa icraçıları isə bu dövlətin silahlı qüvvələrinin bölmələri, Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyəti idi.

Azərbaycan Respublikası Milli Məclisi Xocalı şəhərində azərbaycanlıların kütləvi qırğınını 1994-cü il 24 fevral, 1995-ci il 24 fevral, 2007-ci il 27 fevral və 2012-ci il 24 fevral tarixli qərarları ilə soyqırımı (genosid) cinayəti kimi qiymətləndirib.

"Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi", – deyən Prezident İlham Əliyevin gərgin siyasi fəaliyyətinin nəticəsidir ki, dünyanın əksər dövlətləri Xocalı qətliamını əsl soyqırımı kimi tanıyıb və qəbul edib. Ötən illərdə dövlət başçısının göstərişi ilə Xocalı şəhidlərinin xatirəsinin əbədiləşdirmək üçün bir sıra mühüm tədbirlər həyata keçirilib. Bakıda, respublikamızın bir sıra bölgələrində, həmçinin xaricdəki diasporlarımızın maddi və mənəvi dəstəyi ilə dünyanın əksər ölkələrinin paytaxtlarında Xocalı şəhidlərinin xatirəsinə abidələr ucaldılıb.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində görülən işlər də ildən-ilə daha da genişlənib. Xocalı soyqırımının dünya miqyasında tanıdılması sahəsində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 20-dən çox ştatının icra və qanunvericilik orqanı Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyib.

Prezident İlham Əliyevin göstərişi ilə hər il Xocalı soyqırımı genişmiqyaslı tədbirlərlə qeyd olunur, dövlətimizin başçısı paytaxtda keçirilən ümumxalq yürüşündə iştirak edir. Ölkə rəhbəri daim bundan sonra belə bir soyqırımın yaşanmaması üçün daha diqqətli olmağımızın zəruriliyini diqqətə çatdırır.

Onu da bildirim ki, hazırda ölkəmizdə Xocalı hadisələri bir az fərqli platformada qeyd olunur. Başqa sözlə, bu, 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm tarixi zəfərimiz fonunda xatırlanılır. Yəni, Azərbaycan qalib dövlət kimi bu faciəni fərqli duyğularla anır. Xocalı soyqırımının anım mərasimlərində ermənilər tərəfindən vəhşicəsinə öldürülən insanların qisasının şanlı ordumuz tərəfindən alındığı, bu qalibiyyətlə erməni faşizmi qurbanlarının ruhunun şad olduğu bildirilir.

Yeri gəlmişkən, İkinci Qarabağ müharibəsində də erməni faşizmi cinayətkar əməllərini bir daha nümayiş etdirdi. Dinc şəhər və rayonlarımızı daim atəş altında saxladı. Məsələn, Gəncə cinayətkar Ermənistan ordusu tərəfindən dəfələrlə bombalandı. Nəticədə arasında uşaqlar, qadınlar, yaşlı insanlar olmaqla 26 mülki vətəndaşın həyatına son qoyuldu və sonradan işğalçı insanlığa sığmayan bu faşist əməlinin Azərbaycanın özü tərəfindən törədildiyi bildirdi. Prezident İlham Əliyev Gəncəyə səfəri çərçivəsində bu barədə dedi: "Görün nə dərəcədə alçaqlıq və vicdansızlıqdır. Necə ki, vaxtilə ermənilər deyirdilər, azərbaycanlılar özləri Xocalı soyqırımını törədiblər. Bu dəfə də ermənilər öz yalanlarının, necə deyərlər, qurbanlarına çevrilib. Çünki ballistik raketlərin trayektoriyası böyük dövlətlər tərəfindən izlənilir və hər kəs gördü ki, erməni ordusu gecə vaxtı dinc şəhəri, müharibə zonasından uzaqlarda yerləşən şəhərin məhz yaşayış məhəlləsini məqsədyönlü şəkildə atəşə tutub...".

Ermənistan bu azğın, qəddar hərəkəti, hərbi cinayəti törətməklə Azərbaycanın mübarizə əzmini qırmaq istəyirdi. Bu vəhşiliyə baxmayaraq, nə xalqımız öz iradəsindən döndü, nə də ordumuz geri çəkildi, silahlı qüvvələrimiz dövlətin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətinləşdi, qəhrəmanlıq, dəyanət nümayiş etdirərək, torpaqlarımızı düşməndən təmizlədi. Dinc insanların, şəhidlərin, eləcə də Xocalı sakinlərinin qisasını döyüş meydanında alınması isə dövlətimizin başçısının vurğuladığı kimi, bu, bir daha xalqımızın ermənilərdən fərqli olaraq, böyüklüyünü, ləyaqətini göstərdi.

***Səbuhi BAĞIROV,***
***Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qaradağ Rayon İcra Şöbəsinin böyük icra məmuru***